**Polşanın Sahibkarlığın İnkişafı Agentliyi və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum**

Bundan sonra "Tərəflər" adlandırılacaq,

Polşanın Sahibkarlığın inkişafı Agentliyi Sədr Miroslav Markın simasında,

və

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Fərhad Əliyev, İqtisadi İnkişaf Naziri simasında

Polşa Respublikası və Azərbaycan Respublikası arasında bərabər hüquqlu və qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığa yeni təkan vermək əzmində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1.**

Tərəflər öz səlahiyyətləri və Tərəf dövlətlərin qanunvericiliklərinə uyğun olaraq sahibkarlığın dəstəklənməsi sahəsində əməkdaşlığı həyata keçirəcəklər.
Tərəflər, Polşada və Azərbaycanda sahibkarlığın inkişafı ilə məşğul olan təşkilatlar, həmçinin, hər iki Tərəfin müəssisələri arasında, kiçik və orta biznes subyektlərinə xüsusi diqqət yetirməklə, qarşılıqlı iqtisadi və tərəfdaşlıq əlaqələrin inkişafını təşviq edəcəklər.

**Maddə 2.**

1. Tərəflər aşağıdakı sahələrdə təcrübə və praktika mübadiləsini həyata keçirəcəklər:

a) kiçik və orta sahibkarlığın inkişafı;
b) ixracat;
c) regional inkişaf;
d) yeni texnika və texnologiyaların təşviqi;
e) yeni iş yerlərinin yaradılması;

f) insan resurslarının inkişafı və işsizliyin qarşısının alınması.

2. Tərəflər kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məsələlərinə dair Tərəf dövlətlərinin qanunvericiliyi barədə, həmçinin, Tərəflərin fəaliyyət dairəsinə daxil olan digər informasiya materialları ilə bağlı məlumat mübadiləsini həyata keçirəcəklər.

3. Tərəflər onların fəaliyyət mövzusuna tədqiqatların nailiyyətləri və nəticələrinin mübadiləsi və təşviqini həyata keçirəcəklər.

**Maddə 3.**

Tərəflər yenilik və müasir texnologiyaların tətbiqi sahəsində məlumat mübadiləsini həyata keçirəcəklər.

**Maddə 4.**

Tərəflər, Tərəflərin sahibkarlığın inkişafını təşviq edən müəssisə və təşkilatların nümayəndələrinin iştirakı ilə birgə seminar, görüş, konferensiyaların təşkili ilə məşğul olacaqlar.

**Maddə 5.**

Tərəflər sahibkarlığın inkişafını təşviq edən müəssisə və təşkilatların nümayəndələrini Tərəf dövlətlərin ərazilərində keçiriləcək beynəlxalq, milli və ixtisaslaşmış sərgi yarmarka və digər tədbirlər barədə məlumatlandıracaq və cəlb edəcəklər.

**Maddə 6.**

Hazırkı Memorandum Tərəflərin qarşılıqlı razılığı əsasında və hazırkı Memorandumun 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca əlavələr vasitəsi ilə dəyişilə və ya uzadıla bilər.

**Maddə 7.**

Hazırkı Memorandumun müddəalarının tətbiqi və təfsiri ilə bağlı bütün mübahisəli məsələlər Tərəflər arasında danışıq və məsləhətləşmələr vasitəsilə həll ediləcəkdir.

**Maddə 8.**

1. Hazırkı Memorandum imzalandığı tarixdən qüvvəyə minir.
2. Memorandum Tərəflərdən birinin onun qüvvəsinin ləğv edilməsi barədə yazılı bildirişin alınmasından üç ay sonra öz qüvvəsini itirir. Hazırkı Memorandumun qüvvəsinin ləğv edilməsi Tərəflərin hazırkı Memorandumun müddəaları əsasında razılaşdırılmış və onun qüvvəsinin ləğv edilməsinə qədər bitirilməmiş layihə və proqramların icrasına, həmçinin, hazırkı Memorandumun müddəalarının əsasında bağlanılmış müqavilə və sazişlərə təsir etməyəcəkdir.

Varşava şəhərində, «30» mart 2005-ci ildə hər biri iki nüsxədə olmaqla Polyak, Azərbaycan və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Hazırkı Memorandumun təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində tərtib edilmiş mətn üstünlük təşkil edəcəkdir.

**Polşanın Şahibkarlığın inkişafı Agentliyi**

**Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi**